

**Hörmətli Vaqif müəllim
və Neft-Kimya Prosesləri İnstitutunun
əməkdaşları!**

"Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyəti və kollektivi adından akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyi münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm.

İnstitutun alim və mütəxəssisləri həmişə olduğu kimi bu gün də jurnalımızla sıx əməkdaşlıq edirlər. İnstitutda əldə olunan elmi nailiyyətlərin böyük əksəriyyəti haqqında dolğun məlumatlar mütəmadi olaraq jurnalımızın səhifələrində dərc olunub. Bu nəinki respublikada, eləcə də jurnalın yayıldığı xarici ölkələrdə də qazanılan nailiyyətlər haqqında məlumatların olmasına şərait yaratmışdır.

Bizə məlumdur ki, Azərbaycan neft-kimya elminin flaqmanı olan bu institutun 90 illik fəaliyyəti dövründə Azərbaycan neftlərinin tədqiqi, yüksəkkeyfiyyətli yanacaq və yağların alınması məqsədilə onların effektiv emalının elmi əsaslarının işlənməsi, neft kimyası və neft emalı prosesləri üçün yeni texnologiyaların yaradılması, üzvi kimya, yüksəkmolekullu birləşmələr kimyası, fiziki kimya, neft-kimya sintezi sahəsində fundamental tədqiqatlar aparılmışdır.

İnstitut bir çox ölkələr, o cümlədən Asiya, Afrika, Latın Amerikası ölkələri üçün yüksəkixtisaslı mütəxəssislər hazırlayıb.

Hal-hazırda institut kifayət qədər yüksəkixtisaslı elmi potensiala malikdir (3 akademik, 3 müxbir üzvü, 49 elmlər doktoru, 99 fəlsəfə doktoru), tədqiqatlarını yüksək səviyyədə aparmağa imkan verən, daima təzələnən müasir cihaz və avadanlıqlarla təchiz olunub.

Bu əlamətdar yubiley münasibətilə institutun rəhbərliyini, bütün əməkdaşlarını bir daha kollektivimiz adından təbrik edir, möhkəm cansağlığı və elmi fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,
akademik
İbrahim Quliyev**



